# "QABUSNAMƏ"də TƏRBİYƏVİ FİKİRLƏR

**Sevinc Kərimova.**
*pedaqogika üzrə fəlsəfə doktoru*
E-mail: kerimova_sevinc1967@mail.ru
*Sumqayıt dövlət Universiteti*
**Xəzəngül Babayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan İqtisadiyyat Universitetinin Zaqatala filialı*
E-mail: xezengul68@mail.ru

**Rəyçilər:** *ped.ü.elm. dok.*, prof. A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *"Qabusnamə", Qabus Vəşmgir mənəvi keyfiyyətlər, mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi, şagirdlər*

***Ключевые слова:*** *"Кабус-наме» («Книга Кавуса» или «Записки Кавуса») Кавус Вашмгир, нравственные качества, развитие нравственных качеств, учащихся*

***Keywords:*** *"Qabus nama", Qabus Vashmgir, moral qualities, the development of the moral qualities of pupils*

"Qabusnamə"nin müəllifi Ziyarilər xanədanının son hökmdarı Əmir Ünsürülməali Keykavus ibn İsgəndər ibn Qabus ibn Vəşmgir ibn Ziyardır (qısaca: Qabus ibn Vəşmgir). O, 1021-ci ildə doğulmuş, 1067/1068-ci ildə dünyasını dəyişmişdir. Qırx səsildən ibarət olan kitab 1082-1083-cü illərdə qələmə alınmışdır. "Qabusnamə" qoca Şərqin çox möhtəşəm sənət abidələrindəndir. Əsər dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunmuşdur."Qabusnamə" başdan-ayağa həyati məsələləri öyrətmək, yaşamaq qayda-qanunlarını, X-XI əsr feodal İran cəmiyyətinin yaşayış normalarına uyğun olaraq, təbliğ etmək arzusundan ibarətdir. "Qabusnamə" dünyanın acı-şirinin dadmış, isti-soyuğunu, ara vermədən bir hökmdarın taxta çıxaraq başqa birisinin şahlığını itirdiyini görmüş, müxtəlif təriqətlər, dini çarpışmalar, saray çəkişmələri, ticarət hiyləgərlikləri, insan dəllalığı, qul alveri şahidi və iştirakçısı qoca bir atanın öz oğluna vəsiyyəti-nəsihət kitabıdır" (1).

"Qabusnamə"də cəmiyyət və məişət həyatının çox mühüm sahələrinə aid ibrətamiz kəlamlar öz əksini tapmışdır. Biz, əsasən bu məşhur və qiymətli sənət abidəsindəki tərbiyəvi fikirlər üzərində dayanacağıq.

"Qabusnamə"nin fəsillərində biri "Ata və anaya hörmət haqqında" adlanır. Bu fəsildə valideynlərə hörmət və ehtiramın vacibliyi hər bir övlada – oğlan və qıza xatırladılır və ən zəruri borc kimi irəli sürülür. Oxuyuruq: "Ağlı başında olan hər övlad heç vaxt ata və ana haqqını unutmaz (2. 32). Ata və ananın qəlbini incitmə, onların ürəyinə toxunma (2, 34).

Kitabda valideyn uşaqların həqiqi böyüdəni və tərbiyə verəni kimi nəzərdən keçirilir və böyüyən nəslə məsləhət görülür ki, əgər onların haqqını yerinə yetirməkdə laqeydlik göstərmək, sənin heç bir yaxşılığa layiq olmadığını sübuta yetirir ("Aşkar xeyirxahlığın qədrini bilməyən adam dolayı xeyirxahlığın qədrini haradan bilər? Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır. Sən nadan adını qazanmağa çalışma").

"Qabusnamə"də irəli sürülən belə bir fikir xüsusilə dəyərlidir ki, "öz övladının sənə qarşı necə olmalarını arzulayırsansa, sən də öz ata və anana qarşı elə ol!" (2, 34).

Bəzən uşaqlar böyüyəndən, xüsusən ailə qurandan sonra yaşa dolmuş ata-analarına vaxtlı-vaxtında baş çəkmir, onların dərd-sərləri, qayğıları, dolanışıqları ilə maraqlanmır, yaxud az maraqlanır, onlara lazımi köməyi göstərmir, müalicəsi ilə məşğul olmurlar. Bu biganəliyin səbəbi araşdıranda görürsən ki, övlad günahkardırsa, valideynlərin də bu sahədə təqsiri az deyil. Onlar uşaqlarına oğul və qızlarına yaxşı nümunə göstərməmişlər. Belə ki, bu ata-analar da öz valideynləri ilə bax belə rəftar etmişlər. Bütün bunlar uşaqların gözləri qarşısında baş verib, valideynə qarşı biganəliyin şahidi olub və bunu təbii hal hesab edilər. Bütün bu hallar nəzərə alınaraq, "Qabusnamə"də aşağıdakı fikir





səslənir: "Sən səni doğanla necə rəftar edibsənsə, səndən doğulan da səninlə elə rəftar edəcəkdir. Övlad meyvəyə bənzər, ata-ana isə ağaca! Ağaca nə qədər çox xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar, ata-anaya da nə qədər çox hörmət edib onlardan utansan, o qədər də onların sənin haqqındakı duaları tez müstəcib olar, sən həm Allah yanında da, həm valideyn yanında üzüağ olarsan" (2, 34).

Həmin sözlərdə dərin həqiqət vardır.

Kitabın digər fəsli "Təvazö və biliyin artırılması haqqında" adlanır. Bu fəsildə gənc nəslə, ilk növbədə sənət öyrənmək tövsiyə olunur. bu da son dərəcə vacib məsələdir. İnsan əlini əməyə öyrətməlidir. gün-güzəranı yaxşı olmaq, cəmiyyətdə müəyyən mövqe tutmaq üçün müvafiq peşəyə və sənətə yiyələnməli, boş-bekar gəzib-dolanmamalıdır. Əməkdən uzaq düşmək, işləməmək, tənbəllik, sənəti, peşəsi olmayan həm maddi çətinliklərlə üzləşir, vəziyyətdən çıxmaq üçün bir sıra hallarda yad təsirlər altın düşür, hətta cinayət xarakterli əməllər törədir.

Sənətə yiyələnməyin vacibliyi haqqında "Qabusnamə"də nə deyilir? Oxuyuruq: "Oğul, bil və agah ol ki, sənəti olmayan adamlar gövdəsi olun kğlgəsi olmayan Muğilan (*Ərəbistan çöllərində bitən tikanlı bitki, kol – S.K., X.B.)* ağacı kimi faydasız olarlar və nə özlərinə xeyir verərlər, nə başqalarına" (2, 35).

"Qabusnamə" müəllifi belə fikrin tərəfdarıdır ki, insan həyatda özü üçün cığırı ata-anasına arxayın olmaqla deyil, öz ağlı, öz qabiliyyəti, öz şücaəti, istedadı ilə açmalıdır. Başqa sözlə, valideynin kölgəsində yatmamalıdır ("Sən ata-ananın şən-şöhrəti ilə kifayətlənməməlisən, çünki o, xarici bəzəkdir. Əsl ad-san ona deyərlər ki, onu öz istedad və bacarığınla əldə etmiş olasan").

Şəxsiyyət üçün mühüm keyfiyyətlərdən biri də ünsiyyət və nitq mədəniyyətinə malik olmaqdır. Gənclərin məntiqli danışmağı, müsahibini dinləmək və onun sözünü kəsməmək bacarığı cəmiyyətdə yüksək qiymətləndirilir. Təəssüf ki, intolerant, səbirsiz və hövsələsiz, kobud, ünsiyyət zamanı söyüş söyən, başqalarını təhqir edən, hisslərini cilovlaya bilməyən şəxslərə rast gəlinir. Beləlləri, təbii ki, qınaq obyektinə çevrilirlər.

"Təvazö və biliyin artırılması haqqında" fəslində bu məsələlərin üzərində də dayanılır ("Gərək dilini gözəl danışmağa və yaxşı şeylər söyləməyə öyrədəsən, yaxşıdan başqa heç bir şey deməyə adət etməyəsən, çünki dilə nə öyrədibsən, nəyə adət etdiribsənsə, həmişə onu da deyəcəkdir... Sözü yerində deməyi bil, çünki yersiz deyilən söz nə qədər gözəl olsa. Yenə də çirkin görünər").

Yaxşılıq və xeyirxahlıq gözəl və çox bəyənilən mənəvi keyfiyyətlərdir. "Qabusnamə" də bu barədə faydalı fikirlər səslənir. diqqət yetirək: "Nə qədər bacarırsansa, yaxşılığı heç kəsdən əsirgəmə, yaxşılıq axırda bir gün öz bəhrəsini verəcəkdir (1, 37). Yaxşılığı başa vurmaq yaxşılıq etməmək kimi bir şeydir (2, 42).

"Qabusnamə" müəllifi Qabus Vəşmgir ədalətliliyi ("Bütün işlərdə ədalətli ol"); təvazökarlığı (özünü hamıdan bilikli hesab etmə, elə ki. özünü bilməyən hesab etdin, bilən olarsan, əsl bilən ona deyərlər ki, bilmədiyini bilə") da mühüm mənəvi keyfiyyətlər kimi diqqət mərkəzinə gətirir.

Kitabda biliklərə yiyələnməyin vacibliyi xüsusilə vurğulanır. Çox düzgün olaraq belə nəticəyə gəlinir ki, "Bədənini elm və sənət kəsb etməyə öyrət. bilmədiyin şeyi öyrənməyə çalış. Bunun sənə iki faydası olar: ya bildiyin şeyi təcrübədən keçirmiş olarsan. Ya bilmədiyin şeyi öyrənərsən. Deməli, oğlum, sən bilmək yollarını tapmalısan, elə etməlisən ki, hansı vəziyyətdə olursan ol, bir saatın belə elm öyrənmədən boş keçməsin, axı biliyi nadanlardan da öyrənmək olar" ( 2, 40).

Qabus Vəşmgir "Qabusnamə"dəki fəsillərin birini "Dost seçmək və onun qaydaları" adlandırmışdır. Bəzilərinin çoxlu, bəzilərini az - bir, yaxud iki dostu olur. bəziləri bu fikirdədirlər ki, həqiqi dost yoxdur, ona görə də özünə bihudə yerə əziyyət verib dost axtarmaq, kiminləsə dostluq etmək lazım deyildir. təbii ki, hərə bu məsələyə fərqli münasibət bəsləyir. Yalançı, saxta dostluqdan, mənafe güdərək dostluq edənlərdən uzaqlaşmaq lazımdır. Həyatda həqiqi dostlar heç də az deyil. Bir-birinin

xeyrində, şərində yaxından iştirak edir, bir-birinə dəstək durur, hətta dostundan ötrü özünü təhlükəyə, ölümə atanlar da az deyildir. Bu mənada deyə bilərik ki, dostların olması lazımdır.

Bu barədə "Qabusnamə"də nə deyilir. Fikir verək: "İnsan nə qədər sağdır, onun dosta ehtiyacı vardır... Tez-tez dost dəyişməyi adət etmə, dostu çox olanın eyibləri örtülər, ləyaqətləri meydana çıxar. Lakin təzə dost tapdıqda köhnəsinə arxa çevirmə" ( 2, 122).

Kitabda dostluğa aid tarixi şəxsiyyətlərin fikirlərindən nümunə də gətirilir. Oxuyuruq: "İsgəndərdən soruşurlar: "Az müddətdə bu qədər dövləti hansı xasiyyətinlə ələ gətirdin? Deyir: "Düşmənlərə lütf etmək, dostlara kəramət göstərməklə".

Gəncləri son dərəcə düşündürən bir məsələ var: Kiminlə evlənməli? Kimə ərə getməli?

Bu ciddi məsələ valideynləri də daim maraqlandırır. Onlar öz övladlarını xoşbəxt görmək istəyirlər. Gənclər də uğurlu nikahın. Möhkəm ailənin tərəfdarıdır. Lakin bir sıra hallarda istək və arzu ilə nəticə bir-birini tamamlamır. Gənclərin ailə həyatına hazır olmamaları, ailə ixtilafları, gəlin-qayınana münasibətləri, maddi çətinliklər ailənin dayaqlarını sarsıdır. Boşanmalar baş verir.

"Kiminlə evlənməli?", "Kimə ərə getməli?" suallarına "Qabusnamə" necə cavab verir? Əsərə müraciət edək: "Arvad alanda malına görə alma, çox gözəli də axtarma. Arvad ismətli, namuslu, dindar, evdar, ərini sevən, həyalı, təmizkar, başıaşağı, əlidüz, malyıqan olmalıdır. Özündən daha adlı-sanlı arvad alma. Mehriban olmayan, ev dolandırmağı bacarmayan arvaddan qaç. Arvadı yaxşı ailədən almaq lazımdır (1, 113. ... Qızını ərə verərkən çalış ki qohumlarından olmasın. Övladın qız olsa, nə qədər ki, sənin evindədir, onunla mehriban dolan, çünki qızlar ata-analarının əsiri olarlar. Qız yazıq olar, hər nəyin varsa, əvvəlcə qıza xərclə, onun işlərini düzəlt və onu birisini keçirib onun qəmindən xilas ol (2, 119). ... qız satan olma, onda kürəkən də mürüvvətli olub, öz insanlığını yerinə yetirər (2, 120-121)".

Göründüyü kimi, "Qabusnamə" şagirdlərin, o cümlədən gənclərin tərbiyə olunması baxımdan geniş imkanlar açır. Ümumtəhsil məktəblərinin fənn müəllimləri, tərbiyə işləri üzrə direktor müavinləri, sinif rəhbərləri, kitabxanaçılar, ictimai təşkilatların rəhbərləri bu imkanlardan faydalanaraq təhsilalanların mənəvi tərbiyəlilik səviyyələrini yüksəldə bilərlər.

**Problemin aktuallığı.** Qabusnamə"də öz ifadəsini tapmış tərbiyəvi fikirlər şagirdlərin tərbiyəsinin vasitəsi kimi təqdim olunur.

**Problemin yeniliyi.** Qabusnamə"də öz ifadəsini tapmış tərbiyəvi fikirlər diqqət mərkəzinə gətirilir, onların şagirdlərin mənəvi tərbiyəlilik səviyyəsinin yüksəldilməsindəki rolu əsaslandırılır.

**Problemin praktik əhəmiyyəti.** Qabusnamə"də öz ifadəsini tapmış tərbiyəvi fikirlərdən faydalanmaqla şagirdlər arasında işlərin səmərəli aparılması məqsədilə pedaqoji kollektivlərə istiqamət verilir.

## ƏDƏBİYYAT


1. https://az.wikipedia.org/wiki/Qabusnamə
2. Qabusnamə. Bakı: Azərnəşr, 1989.
3. Az söylə söz söylə (Şərqin şifahi və yazılı abidələrində tərbiyəvi fikkirlər) / Hazırlayanlar: prof. A.N. Abbasov, dos. S.H. Həsənova. Bakı: Maarif, 1993.


**С. Керимова, Х. Бабаева**

## "ВОСПИТАТЕЛЬНЫЕ ИДЕИ В КАБУС-НАМЕ

## РЕЗЮМЕ

Кабус-наме великолепный памятник искусства древнего Востока. Автор Кабус-наме Кабус Вашимгир. Произведение было написано в 1082-1083 годах. В Кабус-наме отражаются ценные изречения, относящиеся к повседневной жизни и к обществу. В статье в основном останавливаются на воспитательных идеях этого известного и ценного памятника искусства. Исследуются возможности произведения с точки зрения воспитания подрастающего поколения, затрагиваются вопросы повышения уровня нравственного воспитания учеников с использованием воспитательных идей.





**S. Karimova, Kh. Babayeva**

## EDUCATIONAL IDEAS "QABUS-NAMA"

## SUMMARY

Qabus-nama magnificent monument of art of the ancient East. Author-name Qaboos Qaboos Vashimgir. The work was written in 1082-1083 -Year. In Qaboos-name securities are recorded sayings related to everyday life and to society. The article mainly dwell on the educational ideas of this famous and valuable monument of art. The possibilities of the product in terms of the education of the younger generation, raises issues raising moral education of students with educational ideas.

**Redaksiyaya daxil olub: 08.07.2016**